

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 148 (24.035)

*9 avqust 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Panama Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariela del Karmen Sagel Rosasın etimadnaməsini qəbul edib.

Dövlətimizin başçısı səfirlə söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə Qoşulmama Hərəkatında yaxşı əməkdaşlığın həyata keçirildiyini bildirib, Azərbaycanın bu təşkilata sədrlik müddətinin uzadılmasının, o cümlədən COVID-19 ilə bağlı ölkəmizin irəli sürdüyü təşəbbüslərin Panama tərəfindən dəstəkləndiyinə görə minnətdarlığını ifadə edib. İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsinin və biznes dairələri arasında informasiya qıtlığının aradan qaldırılmasının zəruriliyini bildirib, yeni təyin olunan səfirin iki ölkənin əlaqələrinin genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Xoş sözlərə görə minnətdarlığını bildirən xanım Mariela del Karmen Sagel Rosas ölkələrimiz arasında əlaqələrin genişlənəcəyinə ümidvar olduğunu bildirib.

* * *

Prezident İlham Əliyev avqustun 6-da Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fidelis Ntampaka Mironkonun etimadnaməsini qəbul edib.



## Naxçıvanda şəhid ehtiramla qarşılandı





Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçərək qəhrəmanlıq tariximizin şanlı səhifələrini yazan şəhidlərimizin xatirəsi daim yaşayacaqdır. Onların döyüş yolu, göstərdikləri şücaət və vətənpərvərlik nümunəsi gənc nəsil üçün nümunədir. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***"Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim üçün unudulmazdır".*** Avqustun 5-də Kəlbəcər rayonunda yeni nəzarətə götürülmüş ərazidə ermənilər tərəfindən basdırılmış minanın partlaması nəticəsində hərbi qulluqçumuz, leytenant Babək Əliyev şəhidlik zirvəsinə yüksəlib.

Avqustun 6-da Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, dövlət və hökumət nümayəndələri, şəhidin ailə üzvləri tədbirdə iştirak etmişlər.

Şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Ali Məclisin Sədri və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildirdilər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi doğulduğu Culfa rayonunun Ləkətağ kəndinə yola salındı.

Ali Məclisin Sədri şəhidin atası Əsgər Əliyev ilə görüşərək başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda mənzillərin, avtomobillərin və dövlət təltiflərinin təqdimatı olub





Avqustun 6-da şəhid ailəsinə və qazilərə yeni mənzillərin və avtomobillərin, qüsursuz xidmət etmiş hərbi qulluqçuya yeni mənzilin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Hər bir ölkənin gücü onun iqtisadi və hərbi qüdrəti ilə yanaşı, həm də insanlarının vətənpərvərliyi ilə ölçülür. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, ***"Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir".*** Ulu öndərin müəllifi olduğu və ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən siyasi xətt müstəqilliyimizi daha da möhkəmləndirmiş, inkişaf davamlı xarakter almış, torpaqlarımız işğaldan azad olunmuşdur. Bu illər ərzində qazandığımız ən mühüm nailiyyətlərdən biri də ölkəmizdəki dövlət-xalq birliyi və insanlarımızın vətənpərvərliyidir.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında Vətən qarşısında xidməti olanlara hərtərəfli qayğı göstərilir, şəhid ailələri və qazilər, eləcə də 20 ildən artıq qüsursuz xidmət edən hərbi qulluqçular mənzillə, qazilərimiz həm də avtomobillə təmin olunurlar. Həmçinin ölkəmizin ümumi inkişafına töhfə verənlər dövlət təltiflərinə, istedadı və qabiliyyəti ilə seçilən gənclərimiz isə xüsusi aylıq təqaüdə layiq görülürlər.

*Ardı 2-ci səhifədə*



Ali Məclisin Sədri qəhrəman şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmiş, şəhid ailəsinə və qazilərə, qüsursuz xidmət etmiş hərbi qulluqçuya yeni mənzillərdə rahat həyat arzulamış, qazilərimizi avtomobillə təmin olunmaları, təltif olunanları dövlətimizin ali mükafatlarına, gəncləri isə xüsusi aylıq təqaüdə layiq görülmələri münasibətilə təbrik etmişdir.

Ali Məclisin Sədri şəhid ailəsi və qazilərə mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmişdir.

Mənzillə təmin olunan şəhid İbrahim Vəlizadənin həyat yoldaşı Billur Vəliyeva demişdir: “Mən şəhid yoldaşı olmaqdan fəxr edir, bu adı daşımaqdan qürur duyuram. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edirəm”.

Mənzillə təmin olunan qazi Cehun Bayramov demişdir: “Mən 2004-cü ildə Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığım müddətdə hər zaman Ali Məclis Sədrinin diqqət və qayğısını üzərimdə hiss etmişəm. Liseyi bitirdikdən sonra xidməti davam etdirdim. Bu gün torpaqlarımız düşmən tapdağından azad olunub. Bundan sonra da qazi kimi hər zaman dövlətimizin yanındayıq. Bizim bu gün mənzillə təmin olunmağımız ailəmizə böyük sevinc bəxş etdi”.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” 2011-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara mənzillər təqdim olunur. Fərmana uyğun olaraq 20 ildən artıq qüsursuz xidmət edən ehtiyatda olan polkovnik-leytenant Fariz Həsənova yeni mənzilin orderi təqdim edilmişdir.

Sonra Azərbaycan Respublikasının orden, medal və fəxri adları təqdim olunmuşdur.

“Tərəqqi” medalı ilə təltif olunan Xəlil Fərəcov göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək demişdir: “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul olunmuş Dövlət proqramları uğurla həyata keçirilir. Ailə təsərrüfatları inkişaf etdirilir, əhalinin məşğulluq səviyyəsi artır. Mən də ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verməyə çalışıram. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramı qəbul olunduqdan sonra 3 hektar, bu il isə əlavə olaraq 4 hektardan artıq meyvə bağı salmışam. Bundan sonra da bu sahədə fəaliyyətimi davam etdirəcəyəm”.

“Azərbaycan Respublikasının Əməkdar tibb işçisi” fəxri adı ilə təltif olunan şəhid anası Yəmən Abbasova əməyinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişdir.

Təltif olunanlardan Yusif Seyidov, Anar Əhmədov, Sahəddin Quliyev, Elman Novruzov, Telman Rzayev, Vilayət Sadıqov, Ramin Hacıyev, Elman Əkbərov, İsmayıl Gülməmmədov və digərləri əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmiş, bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi yolunda səylə çalışacaqlarına söz vermişlər.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 18 iyul tarixli Sərəncamı ilə kikboksinq idmanı üzrə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Röya Abdullayevanın və STEAM təhsili üzrə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Kamal Qafarovun adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılmış və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Ali Məclisin Sədri təqaüd kartlarını gənc istedadlara təqdim etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Təqaüdçü gənc Kamal Qafarov demişdir: “Muxtar respublikada STEAM təhsil metodu tətbiq olunur. Bununla da mənim kimi yüzlərlə şagird öz ideyalarını, intellektual səviyyələrini nümayiş etdirə bilirlər. Mən də 8 nömrəli tam orta məktəbdə yaradılan şəraitdən istifadə edərək STEAM təhsil sahəsində muxtar respublikamızı bir çox tədbirlərdə təmsil etmişəm. Yaradılan müasir təhsil şəraitinə və verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq edirəm. Söz verirəm ki, bundan sonrakı təhsil həyatımda daha da səylə çalışacaq və göstərilən etimadı doğruldacağam”.

Şəhid ailəsinə və qazilərə, qüsursuz xidmət etmiş hərbi qulluqçuya verilən 2, 3 və 4 otaqlı mənzillər Naxçıvan, Babək və Culfa şəhərlərindəki yeni yaşayış binalarında yerləşir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şəhidlik ölümsüzlük adlı zirvəni fəth etməkdir

Bütün ucalardan uca olan bir zirvə var: Şəhidlik zirvəsi, şəhadət mərtəbəsi... Bu məqama yüksəlmək hər kəsin ömür yoluna qismət olmur. Yalnız müqəddəs amal uğrunda – Vətən, torpaq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli igidlər yüksələ bilər bu ucalığa. Nə həyatın şirinliyi, nə də gələcək arzuları onları yolundan döndərə bilər. Yalnız bir hiss – Vətənə məhəbbət, yurda bağlılıq öz ömür payını yurda, torpağa fəda etməyə kifayət edir. Bu yolda məhz qorxu bilməyənlər, ölümün gözünə dik baxanlar şəhid adını qazanır, ölməz qəhrəmana çevrilirlər. Azərbaycan Ordusunun hərbi qulluqçusu Babək Əliyev də belə oğullardan idi.

Avqustun 5-i Kəlbəcər rayonunda ordumuz tərəfindən yeni nəzarətə götürülmüş ərazidə ermənilər tərəfindən basdırılmış minanın partlaması nəticəsində həlak olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Babək Əliyev doğulduğu Culfa rayonunun Ləkətağ kəndində son mənzilə yola salınıb. Şəhidimizin nəşi Naxçıvan Beynəlxalq Hava Limanından doğulduğu Culfa rayonunun Ləkətağ kəndinə gətirilib. Şəhidimizin cənazəsi izdihamla qarşılanıb, qəhrəman Vətən oğlu “Şəhidlər ölməz, Vətən bölünməz!” şüarı ilə Ləkətağ kənd qəbiristanlığında son mənzilə yola salınıb.

Şəhidimizin dəfnində Əlahiddə Ümumqoşun Ordunun, muxtar respublikanın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Culfa Rayon İcra Hakimiyyətinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimində cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Çıxışlarda qeyd edilib ki, şəhid leytenant Babək Əliyev 44 günlük Vətən müharibəsində Kəlbəcərdə, Cəbrayılda, Füzulidə qəhrəmanlıq və şücaətlər göstərib. Həmçinin son günlərdə Azərbaycan Ordusunun keçirdiyi “Qisas” əməliyyatında və digər döyüş əməliyyatlarında fəal iştirak edib. Çıxış edənlər şəhidimizin ailəsinə başsağlığı veriblər. Sonra üçrəngli Azərbaycan bayrağı şəhidimizin atasına təqdim edilib, yaylım atəşi açılıb.

Doğrudan da, şəhidlik elə bir zirvədir ki, kədəri özünün əks qütbünə çevirib onu səadətə döndərə bilər. Öz fədakar, xeyirxah əməlləri ilə zamanın yaddaşına tarix yazan, üstündən yüzilliklər keçsə belə həmişə xatırlanan, ürəklərdə əbədi olaraq şirin xatirələrə dönərək yaddaşlardan-yaddaşlara ötürülən, gələcək nəsillərə örnək olan Azərbaycanın qəhrəman oğulları da bu amala xidmət etdilər. El qədrini öz canından əziz bilən, Vətəni üçün mərdliklə vuruşub şəhid olmağa hazır olan qeyrətli oğulları ilə bütün Azərbaycan fəxr edir, hər birimiz qürur duyuruq.

## Andiçmə mərasimləri keçirilib



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasında, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında gənc əsgərlərin hərbi andiçmə mərasimləri keçirilib.*

Andiçmə mərasimlərində əvvəlcə Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən tədbirdə Mülki Müdafiə Alayının komandiri mayor Şərif Əsədov, zabit İsmayıl Hənifəyev, əsgər Sultanəli Süleymanov gənc əsgərləri hərbi andı qəbul etmələri münasibətilə təbrik edib, xidmətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, dövlətimizin diqqət və qayğısı sayəsində Mülki Müdafiə Alayının maddi-texniki bazası ilbəil gücləndirilir. Əsgərlər üçün yüksək xidmət və məişət şəraiti yaradılır. Bu da fövqəladə hadisələr zamanı şəxsi heyətin çevik və operativ hərəkətinin təmin edilməsinə imkan verir.



Mərasimdə çıxış edən gənc əsgər Yusif Kərimli bildirib ki, əsgəri borcu şərəflə yerinə yetirəcək, baş verə biləcək fövqəladə hallar zamanı zərərçəkənlərin xilas edilməsi üçün əllərindən gələni əsirgəməyəcək, verilən tapşırıqları sözsüz yerinə yetirəcəklər.



Fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri Şamo Abdullayevin təbrikini şəxsi heyətə çatdırıb.

Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasında, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında keçirilən gənc əsgərlərin hərbi andiçmə mərasimi zamanı xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimində hazırlıq barədə raportlar verilib, döyüş bayrağı sıra meydanına gətirilib.

Hərbi andı qəbul edən gənc əsgərlər ölkəmizin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini qanları və canları bahasına qoruyacaqlarına, Vətənimizə, xalqımıza layiqli əsgər olacaqlarına söz veriblər.

Çıxış edənlər Vətənə sədaqət andı içən əsgərlərimizin hərbi anda sadiq qalacaqlarına, intizamlı əsgərlər olacaqlarına, silah və texnikanın sirlərini dərindən öyrənəcəklərinə inamlarını ifadə ediblər.

Andiçmə mərasimlərindən sonra şəxsi heyətlərin təntənəli keçidi olub.

**Xəbərlər şöbəsi**

## Telekommunikasiya şəbəkəsi yenidən qurulur

Muxtar respublikanın yaşayış məntəqələrində aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri çərçivəsində müasir rabitə infrastrukturu yaradılır, yeni avadanlıqlar quraşdırılmaqla xidmətlərin səviyyəsi ilbəil yüksəldilir.

Ordubad rayonunun Unus və Kələki kəndlərində də yeni sosial obyektlər inşa olunur, geniş abadlıq işləri görülür. Adıçəkilən yaşayış məntəqələrində aparılan abadlıq və quruculuq işləri çərçivəsində rabitə infrastrukturunun yenidən qurulması, xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və sakinlərin genişzolaqlı internet xidmətlərindən yararlanması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Yeni inşa edilən kənd mərkəzlərində rabitə evlərinin də fəaliyyət göstərməsi üçün zəruri şərait yaradılıb. Aparılan quruculuq işləri çərçivəsində kəndlərin rabitə xətt təsərrüfatlarında əsaslı təmir işləri aparılır, kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltı xətlərlə əvəz olunur, taxta rabitə dirəkləri dəmir dirəklərlə əvəz olunur, müxtəlif tutumlu yararsız kabellər yeni kabellərlə dəyişdirilir. Bu məqsədlə hər iki kənddə 50-yə yaxın yeni metal rabitə dirəyi basdırılır, 4300 metrdən artıq fiber-optik xətlər və 3000 metrdən artıq hava və yeraltı kabellər çəkilir, 2 ədəd paylayıcı şkaf və 16 ədəd abonent qutusu əlavə edilməklə təmir-bərpa işləri həyata keçirilir.

Qeyd edək ki, Kələki kəndində 96, Unus kəndində isə fəaliyyət göstərən 256 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyalarının yeni inşa olunacaq inzibati binaya köçürülməsi istiqamətində də müvafiq texniki tədbirlər həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılmasının 20 illiyi qeyd olunub





*AMEA Naxçıvan Bölməsinin yaradılmasının 20 illiyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Sonra AMEA Naxçıvan Bölməsinin əsas binasının foyesində bölmənin 20 illik fəaliyyəti dövründə əldə olunan nailiyyətləri əks etdirən sərgiyə baxış olub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikasında elmin inkişafı sahəsində səmərəli fəaliyyətinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanı ilə təltif olunub. Emin Məmmədov Fəxri fərmanı bölmənin sədri, akademik İsmayıl Hacıyevə təqdim edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov tədbirdə çıxış edərək bildirib ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra muxtar diyarımızda elmin sistemli inkişafı, Naxçıvan tarixi ilə bağlı elmi tədqiqatların aparılması zərurətə çevrilmiş məsələlərdən biri idi. Ümummilli lider Heydər Əliyevin 2002-ci il avqustun 7-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi Sərəncam imzalaması ilə muxtar respublikamızın elmi mühiti mərkəzləşib, sistemli və davamlı inkişaf mərhələsinə qədəm qoyub.

Qeyd olunub ki, ulu öndərin böyük diqqət yetirdiyi Azərbaycan elminin inkişaf konsepsiyası bu gün dövlət siyasətinin mühüm tərkib hissəsi kimi uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 14 iyun tarixli Fərmanı ilə “Elm haqqında” Qanunun qəbul edilməsi, 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə martın 27-nin Azərbaycan Respublikasında “Elm günü” kimi təsis edilməsi ölkəmizdə elmin inkişafını dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyəti, müxtəlif institutları, Batabat Astrofizika Rəsədxanası üçün inzibati binalar tikilib və ya əsaslı təmir olunub, yeni avadanlıqlarla təchiz edilib, laboratoriyalar və iş otaqları ilə təmin olunub. Nəticədə, Naxçıvanın qədim və müasir dövr tarixi, ədəbi mühiti, folkloru, biomüxtəlifliyi, faydalı qazıntıları və digər bu kimi mühüm sahələri tədqiq edilərək öyrənilib və əldə olunan yeniliklər dünyanın nüfuzlu elmi jurnallarında işıqlandırılıb. Ötən illər ərzində muxtar respublikada təşkil olunan beynəlxalq elmi konfranslarda, ölkə və beynəlxalq miqyaslı mötəbər tədbirlərdə bölmə əməkdaşlarının fəal iştirakı, həmçinin dünyanın bir sıra beynəlxalq nüfuzlu elmi-tədqiqat mərkəzləri tərəfindən mükafatlandırılması, medallara layiq görülməsi, beynəlxalq qurumların və jurnalların redaksiya heyətinin üzvü seçilməsi beynəlxalq elmi əlaqələrin inkişafından xəbər verir.

Vurğulanıb ki, dövlət elm siyasətinin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublikasının Mükafatlar Komissiyası yaradılıb. Ötən dövr ərzində dövlət qayğısı ilə elmi əhəmiyyətli əsərlər və memarlıq layihələrinin xüsusi mükafatlara layiq görülməsi ənənəyə çevrilib. Həmçinin Ali Məclis Sədrinin 2014-cü il 4 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu təsis edilib. Bu gündək Bilik Fondunun dəstəyi ilə muxtar respublikada çoxlu sayda kitab və jurnallar nəşr edilib. Muxtar respublika rəhbərinin 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması muxtar respublikada elm və təhsilin inkişafı istiqamətində yeni bir mərhələ təşkil etməyə başlayıb.

Akademik İsmayıl Hacıyev çıxışında 20 illik inkişaf yoluna geniş nəzər salaraq bildirib ki, bölmə fəaliyyəti dövründə 20-dən çox elm və təhsil mərkəzləri, o cümlədən ABŞ, Fransa, Türkiyə, Polşa, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və başqa ölkələrin elm və təhsil mərkəzləri ilə sıx elmi əlaqələr qurub. AMEA Naxçıvan Bölməsinin səmərəli elmi fəaliyyəti ölkə rəhbərliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən daim yüksək qiymətləndirilib. Əməkdaşlardan orden, medal və fəxri adlara, Prezident mükafatına, fərdi təqaüdünə layiq görülənlər olub, bir neçə əməkdaş Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilib. “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvan Azərbaycanın dövlətçilik tarixində” monoqrafiyası Naxçıvan Muxtar Respublikası mükafatına, “Tarixi mənbələrdə Nuh Peyğəmbər”, “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabları Ali Məclis Sədrinin mükafatına layiq görülüb. Əməkdaşlardan xarici ölkələrin elmi qurumlarının professoru, nüfuzlu jurnalların redaksiya heyətlərinin üzvləri seçilib, qızıl medallara və diplomlara layiq görülüblər.

Akademik vurğulayıb ki, Azərbaycan elmi və təhsili bütün dövrlərdə dövlətimizin diqqətində olub. Prezident cənab İlham Əliyev mütəmadi olaraq bu sahələrin inkişafı ilə bağlı mühüm tarixi qərarlar verib. Zamanın çağırışlarına uyğun olaraq Azərbaycan dövləti də elm və təhsilin inkişafına mühüm prioritetlərdən biri kimi yanaşır. Dövlətimizin başçısı Azərbaycan Milli Elmlər Akademiyasında struktur islahatlarının aparılması məqsədilə 2022-ci il iyulun 28-də “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərman imzalayıb. Fərmanda nəzərdə tutulan struktur islahatları AMEA-nın elm və istehsalat qurumlarının işinin təkmilləşdirilməsinə nail olunacaq. Bu islahatlar əsasında AMEA Naxçıvan Bölməsi qarşıya qoyulan vəzifələrin bundan sonra daha dəqiq icrasına, mövcud elmi potensialdan səmərəli istifadə etməklə elmi-tədqiqat işlərinin müasir tələblərə cavab verə biləcək səviyyədə aparılmasına çalışacaq. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışının sonunda elmin inkişafına göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədri cənab Vasif Talıbova elmi ictimaiyyət adından minnətdarlığını bildirib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli tədbirə onlayn qoşularaq Naxçıvanın elmi ictimaiyyətini əlamətdar hadisə münasibətilə təbrik edib, bölmənin keçdiyi inkişaf yoluna nəzər salıb. Akademik qeyd edib ki, bölmənin yaradılması Azərbaycan elminin inkişafında mühüm əhəmiyyətə malik olan xüsusi bir hadisədir. Naxçıvan Bölməsi elmin inkişafına göstərilən hərtərəfli dövlət qayğısından bəhrələnərək 20 il ərzində, sözün əsl mənasında, muxtar respublikada Azərbaycan elminin Naxçıvan məktəbini formalaşdırıb, bu gün Azərbaycan elminə sanballı, əhəmiyyətli töhfələr verməkdə davam edir. AMEA Naxçıvan Bölməsi ölkəmizdəki mühüm, əsas elmi mərkəzlərdən biri kimi böyük nüfuz qazanıb.

Çıxışda muxtar respublikada dövlət qayğısı sayəsində tarixi məkanların, abidələrin, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətlərinin dərindən araşdırılması, bununla bağlı müxtəlif monoqrafiyaların, nəşrlərin hazırlanması elmin inkişafında mühüm addım kimi dəyərləndirilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov AMEA Naxçıvan Bölməsi kollektivini əlamətdar gün münasibətilə təbrik edib. Təhsil naziri çıxışında bölmə ilə ümumtəhsil müəssisələrinin qarşılıqlı fəaliyyətindən bəhs edərək bildirib ki, Ali Məclis Sədrinin Sərəncamına əsasən bölmənin, o cümlədən ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəsi olan əməkdaşlarının muxtar respublikanın ümumtəhsil məktəblərindəki nümunəvi dərslərdə iştirakı reallaşdırılıb, 2021-2022-ci tədris ilində 320 saat nümunəvi dərs keçilib. “Sabahın tədqiqatçıları” layihəsi çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərinin şagirdləri bölmə alimləri tərəfindən tədqiqatlara cəlb edilib və uğurlu nəticələr əldə olunub. Ümumilikdə, bu günədək 74 elmi rəhbərin və 132 şagirdin iştirakı ilə muxtar respublika üçün əhəmiyyətli olan 81 layihə üzrə tədqiqatlar aparılıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun baş direktoru, biologiya elmləri doktoru İsmayıl Məmmədov, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, Təbii Ehtiyatlar İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Eltun İbrahimov çıxış edərək bölmənin fəaliyyəti dövründə qazanılan elmi nailiyyətlərdən söhbət açıblar.

Sonra AMEA Naxçıvan Bölməsinin bir qrup əməkdaşı çoxillik səmərəli fəaliyyətinə görə Fəxri fərmanla təltif edilib, bölmənin yaradılmasının 20 illiyindən bəhs edən filmə baxış olub.

✍ **Nail ƏSGƏROV**

## Naxçıvanda qanvermə aksiyası keçirilib

Avqustun 8-də Aşura günü münasibətilə Naxçıvan Muxtar Respublikasında könüllü qanvermə aksiyası keçirilib.

Aşura günündə ənənəvi keçirilən qanvermə aksiyaları ötən il olduğu kimi, bu il də pandemiya səbəbindən məscidlərdə deyil, səhiyyə müəssisələrində təşkil olunub. Sosial məsafə gözlənilməklə sanitar-gigiyena qaydalarına ciddi əməl edilib, donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim briqadaları tərəfindən əvvəlcə donorlar koronavirus, arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün müayinələr aparılıb, müvafiq qan qruplarına uyğun qan götürülüb.

Aksiyada, bütövlükdə, 590 nəfərdən götürülən 294 litr qan qrupları müəyyənləşdirilərək Naxçıvan Muxtar Respublika Xəstəxanasının və Diaqnostika Müalicə Mərkəzinin Qan banklarına təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Gəncliyimiz, gələcəyimiz*

## Hər millətin inkişafının başlıca amili elmdir

*Muxtar respublikada təhsil sahəsində aparılan uğurlu islahatlar, təhsilin xüsusi diqqət və qayğı ilə əhatə olunması bu sahənin günü-gündən daha da inkişafına və gələcəyimiz olan yeniyetmələrin istedadlı və bilikli vətənpərvər kimi yetişmələrinə ən layiqli töhfəsini verməkdədir. Muxtar respublikada istedadlı və yaradıcı təfəkkürü ilə seçilən şagirdləri aşkar etmək, onların bilik və bacarıqlarını möhkəmləndirmək üçün bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir. Xüsusi istedadlı uşaqların üzə çıxarılması, şagirdlərdə fənlərə olan marağın artırılması, onların bilik və bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılması məqsədilə olimpiadaların təşkil edilməsi məktəblilər arasında sağlam rəqabətin və bunun sayəsində daha da yüksək nailiyyətlərin əldə olunması ilə nəticələnir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində qədim diyarımızda müasir təhsil infrastrukturu yaradılıb. Belə ki, muxtar respublikada orta, orta ixtisas və ali təhsil, eləcə də elm müəssisələri üçün müasir tələblərə cavab verən binalar tikilib, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilib. Daha dəqiq desək, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bu gün həmin məktəblərdə, ali təhsil müəssisələrində zəngin dərslik və bədii ədəbiyyat olan kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarındadır. Yaradılan müasir təhsil mühitinin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərirlər.

Builki qəbul imtahanlarında I ixtisas qrupu üzrə 691 bal toplayan muxtar respublika birincisi, Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin məzunu ***Nərmin Vəliyeva*** onlardan biridir. Nərminin dediklərindən: – Uğur qazanmaq üçün qarşına məqsəd qoymalı və bu məqsədə çatmaq üçün çox çalışmalısan. Mən də belə etdim, çox çalışdım və istəyimə nail oldum. Təhsilimi davam etdirmək üçün əvvəlcədən qəbul olmaq istədiyim Bakı Ali Neft Məktəbini seçəcəyəm. Gələcəkdə burada ali təhsil ala bilmək üçün çox çalışmağın gərəkliyini bilirdim. Ona görə də vaxtlı-vaxtında dərslərimi oxudum. Hər gün 6-7 saat dərslərimlə məşğul olurdum. İlk sınağımda nəticəm yüksək olsa da, məni tam qane etməmişdi. Ona görə də düşünürdüm ki, hələ kifayət qədər zəhmət çəkməmişəm. Dərslərimə daha çox vaxt ayırmağa başladım və arzuladığım yüksək nəticəni əldə edə bildim. İstedadla yanaşı, əziyyət çəkməyin, səbirli, iradəli və yalnız məqsədə doğru irəliləməyin vacib olduğunu öncədən bilirdim. Müəllimlərimin və valideynlərimin mənə göstərdiyi diqqət və qayğını heç vaxt unutmayacağam.

Onu da qeyd edək ki, Nərmin məktəbdə keçirilən bütün bilik yarışlarında və tədbirlərdə fəallığı ilə seçilib, dəfələrlə olimpiadalarda iştirak edib və mükafatlara layiq görülüb. Ümumi orta təhsilini fərqlənmə attestatı ilə başa vurub. Eyni zamanda tam orta təhsilini xüsusi nümunəli attestatla bitirməklə “Qızıl” nişana layiq görülüb. Nərmin deyir ki, qarşıdakı hədəfim yüksəkixtisaslı kadr kimi yetişmək, işimin peşəkarı və hər zaman ehtiyac duyulan mütəxəssis olmaq, oxuduğum təhsil ocağının adını daim yüksəkdə tutmaqdır. İnanıram ki, arzuladığım ali məktəbdə təhsil alarkən də mənə göstərilən etimadı doğruldacağam.



Avqust ayının 4-də Şərur şəhərindəki 2 nömrəli məktəbdə böyük sevinc yaşandı. Nərminin qazandığı uğur münasibətilə tədris müəssisəsində keçirilən görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri yüksək müvəffəqiyyətə nail olmuş Nərmini və pedaqoji kollektivi təbrik etdi. Muxtar respublika birincisinə diplom, pul mükafatı və məktəbə təşəkkürnamə təqdim olundu. Həmin tədbirdə iştirak edənlərlə görüşdük, onların ürək sözlərini dinlədik.

Nərminin atası ***Məhərrəm Vəliyev***: – Hər bir valideynin arzularından biri də övladının təhsil alması və cəmiyyətdə layiqli yer tutmasıdır. Bizim övladımıza verəcəyimiz ən böyük xəzinə, miras təhsildir. Çünki bu xəzinə bitmək-tükənmək bilməyən yeganə var-dövlətdir. Valideyn övladının ali təhsil alması üçün daim çalışır, zəhmət çəkir və onu gələcəkdə bir sənətə, peşəyə yiyələnən biri kimi görməyi arzulayır. Düşünürəm ki, övladlarımız bizdən daha şanslıdırlar, çünki onlar bu gün öz gəncliyinə qiymət verən bir dövlətin, müstəqil Azərbaycanın yaşadıcılarıdır. Mən bütün valideynlər adından övladlarımıza yaxşı təhsil almaları üçün hər cür şərait yaradan Ali Məclis Sədrinə minnətdarlığımı bildirirəm.

Nərminin fizika müəllimi ***Günel Abbasova*** deyir ki, Nərmin bütün müsbət xüsusiyyətlərə malik olan, intellekt və istedadı ilə seçilən şagirdlərimizdəndir. Bir müəllimi kimi demək istəyirəm ki, qazandığı bu uğur onun öz ağlı, savadı, dünyagörüşünün nəticəsidir. Nərmin kimi bir şagirdə dərs demək və bu uğurlarını görmək biz müəllimlər üçün qürurvericidir.

*Biz də onlara göstərilən etimadı doğruldan hər bir abituriyentə, zəhmət və fədakarlıqla qazandığı tələbə adına layiq olan gəncliyimizə daha böyük uğurlar arzulayırıq.*

✍ **Aytac CƏFƏRLİ**

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi 2022-ci ilin iyul ayında nazirliyin iş planına və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələrin icrasına çalışmış, bu istiqamətdə bir neçə mədəni-kütləvi tədbir həyata keçirilmişdir.*

# İyul ayında xalq yaradıcılığı nümunələrinin çəkilişləri aparılmışdır

İyul ayında Açıq Səma Altında Muzeyin yaradılmasının 20, Məmməd Səid Ordubadinin ev-muzeyinin yaradılmasının 50 illikləri münasibətilə tədbirlər keçirilmişdir.



Bəhs olunan dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil olan 1 ədəd xalça haqqında məlumat *"naxcivan_muzeyleri"* "Instagram" səhifəsində və Naxçıvan Dövlət Xalça Muzeyinin sosial şəbəkə hesablarında paylaşılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında" 2022-ci il 5 yanvar tarixli və "Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında" 2022-ci il 14 mart tarixli sərəncamlarının icrası ilə bağlı, ümumilikdə, 5 tədbir keçirilmişdir.

İyul ayında muxtar respublikanın muzeylərini 32 min 446 nəfər yerli, 4 min 257 nəfər əcnəbi olmaqla, ümumilikdə, 36 min 703 nəfər tamaşaçı ziyarət etmiş, muzeylərə 109 yeni eksponat daxil olmuş, muzey fondlarına daxil olan 79 eksponat isə profilinə uyğun olaraq fondun yerdəyişməsi yolu ilə digər muzeylərə verilmişdir.

Muzeylər tərəfindən şəhidlərimizin doğum və anım günləri, əlamətdar və tarixi günlər, tanınmış şəxsiyyətlərlə bağlı və digər bu kimi mövzularda 230 sayda material hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır. Bu paylaşımları 81 mindən çox internet istifadəçisi izləmişdir. İyul ayında nazirliyin "naxcivan_muzeyleri" "Instagram" hesabında 10 paylaşım edilmiş, səhifənin ümumi izləyicilərinin sayı 845 nəfər olmuşdur.

Ötən ay "Mütaliə", "Kitabxanaçı", "Kitabxana"və "Nağıl" günləri ilə bağlı muxtar respublikanın kitabxanaları tərəfindən 98 tədbir keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud 39 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Həmçinin iyul ayında kitabxanaların, eləcə də klub müəssisələrinin əməkdaşları arasında "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan 22 kitabın müzakirəsi keçirilmişdir.

İyul ayında nazirliyə Naxçıvan Muxtar Respublikası Ali Məclisindən 5 adda 71 nüsxə, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasından 10 adda 200 nüsxə çap məhsulu daxil olmuş və aidiyyəti üzrə paylanmışdır.

Bəhs olunan dövrdə muxtar respublikanın kitabxanalarına 834 adda 1500 nüsxə çap məhsulu daxil olmuşdur. Həmçinin bu kitabxanalara bu ilin iyul ayında 1064 yeni oxucu müraciət etmiş, oxucu gəlişi isə 19 min 850, kitab verilişi isə 44 min 460 nüsxə olmuşdur. Bundan başqa, ötən ay 580 adda kitab işlənilməklə elektron kataloqdakı kitabların sayı 33 min 616-ya çatdırılmışdır. Şəbəkəyə işlənmiş (PDF) kitabların sayı isə 50 olmaqla belə kitabların sayı 3 min 973-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 198 lokal, 310 qlobal olmaqla, ümumilikdə, 508 oxucu istifadə etmişdir.

Ay ərzində kitabxanalarda əlamətdar və tarixi günlər, eləcə də tanınmış şəxsiyyətlərin yubileyləri ilə bağlı, ümumilikdə, 3-ü onlayn olmaqla, 154 tədbir keçirilmişdir.

İyul ayında xalq yaradıcılığının öyrənilməsi, yaşadılması və gələcək nəsillərə çatdırılması məqsədilə Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz tərəfindən sosial şəbəkələrdə xalq yaradıcılığı nümunələrinə aid materiallar paylaşılmış, mərkəzin, eləcə də Şərur və Ordubad Rayon Mədəniyyət idarələrinin təşkilatçılığı ilə "Xalq yaradıcılığı günü" çərçivəsində rayon mədəniyyət saraylarının, mədəniyyət evləri və klubların folklor qrupları və dərnək üzvlərinin ifasında xalq oyun və mərasimlərinin, yallı, rəqs və musiqi nömrələrinin Naxçıvan Dövlət Film Fondu tərəfindən videoçəkilişi aparılmışdır.

İyulun 19 və 29-da Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı Seyfəddin Dağlının "Adı sənin, dadı mənim" satirik komediyası əsasında hazırlanmış eyniadlı tamaşanı Şərur və Sədərək rayonlarında ictimaiyyətə təqdim etmişdir.

İyul ayında Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz tərəfindən Babək rayonunda fəaliyyət göstərən klub müəssisələrinin əməkdaşlarına əməli köməklik göstərilmiş, rayonun Kültəpə Kənd Mədəniyyət Evində görkəmli şair Əhməd Cavadın 130 illik yubileyinə həsr olunmuş "Azərbaycan bayrağına" adlı tədbir keçirilmişdir. Ümumilikdə, iyul ayında Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz və klub müəssisələrində 38 tədbir keçirilmişdir.

Naxçıvan Dövlət Film Fondu tərəfindən görkəmli kino xadimləri, dünya və Azərbaycan kinosunun inciləri haqqında, film çəkilişlərindən maraqlı faktlarla bağlı iyul ayında sosial şəbəkə hesablarında paylaşımlar edilmiş, 6 film nümayiş olunmuşdur. Həmçinin Film Fondu tərəfindən, ümumilikdə, 20 material hazırlanmışdır.

İyul ayında nazirliyin Gənclər Təşkilatının Kəngərli Rayon Gənclər Birliyinin üzvləri arasında İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərinin müzakirəsi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin "Youtube" kanalının iyul ayında izləyici sayı 367 min 371, abunə sayı isə 2 min 950 nəfər olmuşdur. Ötən ay nazirliyin "Facebook" və "Instagram" səhifələrində 40 sayda paylaşım edilmiş, bu paylaşımları 7 min 600-dən çox internet istifadəçisi izləmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda Beynəlxalq Gənclər Günü ilə bağlı tədbirlərə start verilib



Muxtar respublikada əlamətdar günün qeyd olunması ilə bağlı Gənclər və İdman Nazirliyi, Naxçıvan Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi tərəfindən hazırlanan Tədbirlər Planına uyğun olaraq "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə muxtar respublika birinciliyinin Naxçıvan şəhəri və bölgələri əhatə edən ilk mərhələsi başa çatıb.

Paytaxt şəhərdə keçirilən yarışmada əvvəlcə Kəlbəcər rayonunun şərqində, yeni nəzarətə götürülmüş ərazidə ermənilər tərəfindən basdırılmış minanın partlaması nəticəsində avqustun 5-də həlak olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Əliyev Babək Əsgər oğlu və onun timsalında bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gənclər Birliyinin sədri, Gənclər Fondunun şöbə müdiri Arzu Qasımov və nazirliyin şöbə müdiri İlahə Haqverdiyeva çıxışlarında şəhidlərimizə Allahdan rəhmət diləyib, muxtar respublikada gənclərin asudə vaxtının səmərəli təşkili, onların şəxsi inkişafı və vətənpərvər ruhda formalaşdırılması istiqamətlərində görülən işlərdən bəhs ediblər. Gənclərin intellektual səviyyəsi, dünyagörüşü və zehni inkişafının stimullaşdırılması baxımından bu tipli bilik yarışlarının əhəmiyyətli olduğu vurğulanıb, Naxçıvanı təmsil edən komandaların uğurları ilə bağlı fikirlər səsləndirilib.

Çıxışların ardınca mübarizəyə start verilib. Qaydalara əsasən 2 turdan ibarət yarışmada iştirakçılar üçün müxtəlif mövzularda 24 sual səsləndirilib. Hər düzgün cavab 1 xalla qiymətləndirilib. Nəticələrə əsasən "Şuşa" komandası birinci olub. Rayonlarda təşkil olunan mərhələ yarışlarının qalibləri də 9 avqust tarixdə keçiriləcək final mərhələsinə adlayıblar.

Qeyd edək ki, birincilikdə ilk üç yeri tutan komandalar 12 avqust tarixdə Beynəlxalq Gənclər Günü ilə bağlı həftə ərzində silsilə tədbirlər keçiriləcək, yekun tədbirdə mükafatlandırılacaqlar.

***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi tərəfindən gənclərin iştirakı ilə Heydər Əliyev Su Anbarı ətrafında təmizlik aksiyası təşkil olunub.



Çıxış edənlər aksiyaya qoşulanlara təşəkkür edərək Beynəlxalq Gənclər Günü ərəfəsində də gənclərin nəcib, qayğıkeş addımlarını davam etdirməsini təqdir ediblər. Bildirilib ki, könüllü fəaliyyət əsasında birləşən gənclərimiz öyrənmək və öyrətmək istəyi, qayğıkeş və vətənpərvər davranışları, aktivliyi, bir sözlə, nümunəvi addımları ilə seçilir. Onların davamlı iştirakı ilə təşkil olunan təmizlik aksiyaları təbiətə olan sevgidən, ətraf mühitə olan həssas münasibətdən irəli gəlir. Qeyd olunub ki, muxtar respublikada təbiətin mühafizəsi üçün görülən işlər, bu sahəyə göstərilən dövlət qayğısı hər birimizdən təbiətə, torpağa qayğı və sevgi ilə yanaşmağı tələb edir. Ətraf mühitdən istifadə etmək hər bir vətəndaşın hüququ olduğu kimi, onun qorunması da hər birimizin vətəndaşlıq borcudur.

Çıxışların ardınca 35 gəncin qoşulduğu aksiya həyata keçirilib. Zəruri sanitar ləvazimatlarla təmin olunan gənclər tullantıları sahələrdən toplayıb, ətrafda səliqə-sahman yaradıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/s | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 8292 | 704,8 | 704,8 | 100,0 |
| 2. | Şərur rayonu | 2441 | 203,8 | 203,8 | 100,0 |
| 3. | Babək rayonu | 2706 | 230,0 | 230,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1269 | 107,5 | 107,5 | 100,0 |
| 5. | Culfa rayonu | 1618 | 136,3 | 136,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 863 | 76,1 | 76,1 | 100,0 |
| 7. | Şahbuz rayonu | 433 | 35,9 | 35,9 | 100,0 |
| 8. | Sədərək rayonu | 226 | 19,5 | 19,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 35131 | 3543,5 | 3568,4 | 100,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **52979** | **5057,4** | **5082,3** | **100,5** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla verilən 52 milyon 979 min kilovat-saat elektrik enerjisinin dəyəri 5 milyon 57 min 400 manat olmuş, cəmi 5 milyon 82 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,5 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin iyul ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/s | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 221173 | 35061 | 35065 | 100,0 |
| 2. | Şərur rayonu | 786294 | 119278 | 119287 | 100,0 |
| 3. | Ordubad rayonu | 443745 | 65527 | 65531 | 100,0 |
| 4. | Babək rayonu | 810232 | 134221 | 134226 | 100,0 |
| 5. | Culfa rayonu | 349674 | 56322 | 56323 | 100,0 |
| 6. | Naxçıvan şəhəri | 1084616 | 172668 | 172688 | 100,0 |
| 7. | Kəngərli rayonu | 239471 | 40327 | 40327 | 100,0 |
| 8. | Sədərək rayonu | 100624 | 14949 | 14949 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14350177 | 2636634 | 2635971 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18386006** | **3274987** | **3274367** | **100,0** |

***İtmişdir***

Şərur rayonu, Şəhriyar kənd sakini Orucov Mehman Əyyub oğlunun adına olan JN-0094 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şükürov Elvin Elçin oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 697